# AĞAYEV FAİQ ALIŞ OĞLU



1969-cu il iyunun 6-da Ağdam rayonunun Papravənd kəndində doğulmuşdur. 1986-cı ildə Papravənd kənd orta məktəbini bitirmişdir. 1987-1989-cu illərdə keçmiş sovet ordusu sıralarında layiqli xidmətini başa vuraraq vətənə qayıtmış və Yevlax şəhərində əmək fəaliyyətinə başlamışdır. Həmin zamanlar erməni hərbi qüvvələri Azərbaycanın sərhəd bölgələrində və Qarabağda cinayətlər törədirdilər. Bu hadisələrə seyrçi qalmayan Faiq 1990-cı ilin sentyabr ayında Ağdam rayon Polis İdarəsinin tərkibində yaranmış polis alayına yazılmışdır. 1991-ci il dekabrın 23- də erməni silahlı qüvvələri Meşəli kəndinə güclü hücuma keçmişdilər. Düşmənin zirehli texnikası və onun arxasınca gələn çoxsaylı piyada qüvvələri kənd əhalisini təşvişə salmışdır. Zirehli texnikadan atılan mərmi evləri dağıtmış, insanların həlakına səbəb olmuşdur. Dinc əhalini təhlükəsiz yerə çıxarmaq üçün döyüşçülərimiz əllərindən gələni etmişdilər. Vəziyyət son dərəcə ağır imiş. Faiq sərrast atəşlə erməni yaraqlılarını yerə sərərək, dinc əhalinin daldalanmasına kömək etmişdir. Düşmənin diqqətini özünə cəlb edən Faiq son nəfəsinədək vuruşaraq qəhrəmanlıqla həlak olmuşdur. Ağdam rayonunun Papravənd kəndində dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Ağayev Faiq Alış oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.